“CASPIAN LLOYD” MMC

# Dayanıqlı İnkişaf Siyasəti

“Caspian Lloyd” MMC səmərəli fəaliyyət göstərən və dayanıqlı inkişafı təmin edən beynəlxalq təsnifat cəmiyyətidir.Dayanıqlı inkişaf siyasəti, Cl-in sahibkarlıq fəlsəfəsinin əsasını təşkil edən, mühüm amillərdən biridir.Cl fəaliyyətinin ilk günlərindən, Azərbaycanda təsnifat sahəsində aparıcı beynəlxalq təcrübənin tətbiqinə, standartlarına, tələblərinə, korporativ idarəetmə sisteminin təşkilinə ciddi diqqət ayırır və mütəmadi olaraq bu istiqamətdə çalışır.Biz, fəaliyyətimiz boyunca dayanıqlı inkişaf konsepsiyasına riayət etməyi qarşımıza məqsəd qoymuşuq.Təsnifat cəmiyyətimiz təbiətin və insan kapitalının əhəmiyyətini dərk etməklə bərabər, bu yöndə ola biləcək hər hansı mənfi təsirin minimuma endirilməsinə xüsusi diqqət göstərir.Həmçinin şirkətimiz fəaliyyət göstərəcəyi dövrlər ərzində maddi, təbii, insan, maliyyə və digər resursların qənayətli və məsuliyyətli şəkildə istifadəsinə əhəmiyyət verməkdə davam edəcəkdir.

Dayanıqlı inkişaf dinamikasına malik olan maliyyə vəziyyətinin qorunub saxlanılması istiqamətində, təsnifat cəmiyyətimiz xərclərin optimallaşdırılması,izafi xərclərin aradan qaldırılması,gəlirlərin səmərəli bölgüsü və istifadəsi, yeni şirkətlərlərin əməkdaşlığa cəlb olunması prinsiplərini həyata keçirir.Bundan başqa müəssisəmiz yarandığı andan etibarən fəaliyyətini mənfəətli şəkildə davam etdirərək, müsbət iqtisadi göstəricilərə nail olmaq yolunda irəliləməkdədir.